# Türkiyənin Bakıdakı səfirliyinin qarşısında zəlzələ qurbanlarının xatirəsi anılır





Türkiyədə baş vermiş dəhşətli zəlzələ nəticəsində həyatını itirənlərin xatirəsi Bakıda da yad edilir.

AZƏRTAC xəbər verir ki, zəlzələdə ölənlərin xatirəsini anmaq məqsədilə insanlar Türkiyənin ölkəmizdəki səfirliyinin qarşısında yaradılan



xatirə guşəsinin önünə gül dəstələri düzürlər.

Xatırladaq ki, qardaş ölkədə baş vermiş təbii fəlakətlə bağlı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ölənlərin xatirəsini anmaq üçün Türkiyədə bir həftə matəm elan edib. Qardaş ölkənin Azərbaycandakı səfirliyinin önündəki Türkiyə bayrağı da yarıya qədər endirilib.

Azərbaycan.- 2023.- 8 fevral.- S.11.